# AZƏRBAYCAN ELM FONDU

**Azərbaycan Elm Fondunun**
**"Gənc Alim və Tədqiqatçıların 7-ci**
**qrant müsabiqəsi"nin (AEF-GAT-7-2023-2(44))**
**qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə aralıq**
**(rüblük olaraq 1-ci mərhələ)**

## ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Qərbi Azərbaycanın mədəni-tarixi resurslarının turizmin inkişafında rolu**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Nəzərova Gülnar Fərrux qızı**
Layihənin nömrəsi: **AEF-GAT-7-2023-2(44)-10/09/2-M-09**
Müqavilənin imzalanma tarixi: **12 fevral 2024-cü il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **18 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 mart 2024-cü il - 01 sentyabr 2025-ci il**
*Layihənin **I mərhələ** üzrə (rüb) məbləği:*

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| **1** | Layihənin həyata keçirilməsi üzrə cari rübdə yerinə yetirilmiş **elmi işlər** |
| | *Layihənin birinci mərhələsində Qərbi Azərbaycanın tarixi keçmişinə nəzər salaraq, onun mədəniyyət fonunda inkişafını təhlil etməyə çalışdıq. Prosesə ilk olaraq tarixi icmalın verilməsi ilə başlamaqla sonrakı mərhələlərin daha düzgün davam etdirilməsinin məqsədəuyğun hesab edirik.*<br>*Elmi mənbələr təsdiqləyir ki, mədəniyyət anlayışı bir çox humanitar elmlərlə, o cümlədən tarixi və coğrafi elmlərlə sıx bağlıdır. Məhz bu səbəbdən, bölgənin tarixi dövrlərinə diqqət yetirərək, mədəniyyətin inkişaf aspektlərini müəyyən etməyə çalışdıq.*<br>*Azərbaycan torpaqları tarix boyu bir çox hadisələrə şahid olmuşdur. Bunlardan mühümü isə torpaqlarımızın bölüşdürülməsinə əsaslanmış müqavilələr idi:*<br>o *1813-cü il – Gülüstan müqaviləsi;*<br>o *1828-ci il – Türkmənçay müqaviləsi.*<br>*Bu müqavilələrin imzalanması ilə torpaqlar iki yerə bölünmüşdür. Şimali Azərbaycan Rusiya və ya Sovet Azərbaycanı, Cənubi Azərbaycan isə İran Azərbaycanı kimi qeydə alınmışdır. Bundan sonra Rusiya imperiyası Şimali Azərbaycanın qərb hissəsində erməniləşdirilmə siyasətini həyata keçirməyə başlamışdı. Nəticədə, qərb bölgədə ilk dəfə olaraq, erməni dövlətinin əsası qoyulmuşdur. Bununla da, tariximizdə yeni bir anlayış – "Qərbi Azərbaycan" meydana gəlmişdir.*<br>*Qərbi Azərbaycanda çox qədim bölgədir. Onun təbii-coğrafi şəraiti, mədəniyyət ünsürləri olduqca əhəmiyyətlidir. Məhz buna nəzərən, tədqiqatın əsas məqsədlərindən biri regionun tarixi və coğrafi icmalına əsasən kulturoloji aspektlərini tədqiq etməkdir.*<br>*İşin əsas obyekti Qərbi Azərbaycan, həmçinin onun tarixi və coğrafi mühitinin elementləridir. Predmeti isə* |

*bölgənin mədəniyyət sferasında tarixi-coğrafi şəraitinin təhlil edilməsidir.*

*Araşdırma aparılarkən məlumat bazası kitab, qəzet və internet resursu kimi mənbələrdən geniş istifadə edilmişdir.*

*Tarixi mənbələr və arxeoloji kəşfiyyat işləri sübuta yetirmişdir ki, Azərbaycan torpaqları dünyanın ən qədim sivilizasiyalardan biri olmuşdur. Ərazidə Azıx, Damcılı, Tağlar, Qazma, Daşsalahlı kimi mağaralar, paleolit, mezolit, neolit kimi dövrələrə məxsus əkinçilik, maldarlıq, sənətkarlıq nümunələri aşkar edilmişdir. Belə ki, ölkənin torpaqlarının ən antik ərazilərdən biri də məhz onun qərb bölgəsi hesab edilən Qərbi Azərbaycandır.*

*Məhz Qərbi Azərbaycan da ən qədim türk ərazisidir. Hələ e.ə. II əsrdə Azərbaycan türkləri burada məskunlaşmağa başlamışdılar. Regionda keçmiş zamanlarda kimmer, hun, quqar, sak, qarqar, peçeneq, şadılı, şirak, kəngər, cinli, oğuz, sabunçu, əfqan, qarapapaq, muğan, zəngi, qazax, xalac, türkmən, ayrım və s. kimi türk tayfaları yaşamışdır. Bu faktı ərazidəki toponimlər təsdiq edir: Xalac, Şidli, Əfşar, Gümrü və b. (Bayramov, 2015, p.8-12). Bu ərazilərdə türk tayfaları tarixi-mədəni izlərini qoymuşdular. Xüsusilə, tayfaların bəziləri Göyçə gölü ətrafında məskən salmışdılar.*

*Bununla yanaşı, "Kitabi-Dədə Qorqud" qəhrəmanlıq dastanlarındakı cərəyan edən hadisələrin bəziləri məhz bu diyarda baş vermişdir. Digər tərəfdən, Ağqoyunluların hökmdarı Uzun Həsənin göstərişi əsasında Əbu Bəkr Tehraninin qələmə aldığı "Kitabi-Diyarbəkriyyə"sində Oğuz xaqanın Göyçə gölü ətrafındakı məskunlaşdığı, habelə burada dəfn edildiyi barədə məlumat verilir. Bundan əlavə, Bayandur xaqan və başqa oğuz-türk sərkərdələri də Qərbi Azərbaycan bölgəsində fəaliyyət göstərmiş, məskunlaşmış və dəfn edilmişdir. Bu cür tarixi faktlar bölgənin qədimliyi isbat edir.*

*Qərbi Azərbaycan torpaqları orta əsrlərdə Atabəy (Eldənizlər), Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi kimi dövlətlərin tərkibində fəaliyyət göstərmişdir.*

*XV əsrdə meydana gəlmiş Qaraqoyunluların hakimiyyəti altında olarkən Qərbi Azərbaycanın inzibati-ərazi bölgüsündə bəzi dəyişikliklər edilmişdir. Onun şimal-qərb bölgəsi Qarabağ, cənub-qərb bölgəsi isə Çuxursəd əyalətinə daxil edilmişdir. Qaraqoyunlu hökmdarı Cahanşah 1441-ci ildə erməni-qriqorian kilsəsinin iqamətgahının Üçkilsəyə-Eçmiədzinə köçürülməsinə icazə vermişdir. Bununla da, İrəvanda Alban kilsəsinin mövqeyinə əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir. Həmçinin, birbaşa yerli əhalinin dini-mədəni təfəkürünə də təsir etmişdir.*

*Ağqoyunlu və Səfəvi dövlətlərinin hakimiyyəti illəri ərzində Çuxursəd inzibati-ərazi bölgüsünün mövqeyi olduğu kimi saxlanılmışdır. Lakin XVI əsrdə Səfəvi-Osmanlı müharibələri nəticəsində bağlanmış İstanbul müqaviləsinə əsasən Çuxursəd Osmanlılara verilmişdir. Bununla da, Çuxursəd bəylərbəyliyində dəyişikliklər edilərək ərazisi İrəvan və Naxçıvan əyalətlərinə bölünmüşdü. XVII əsrin əvvəlində Səfəvilər dövləti İrəvan əyalətini Osmanlılardan geri almışdı.*

*XVIII əsrin 20-ci illərində isə yenidən İrəvan Osmanlıların tərkibinə keçmişdi. Ancaq Nadir şah Əfşarın sayəsində əyalət geri alındı və onun imperiyasının tərkibinə daxil edildi. Tarixi mənbələrdən məlum olmuşdur ki, Nadir şahın qətlindən sonra Azərbaycan torpaqlarında müstəqil xanlıqlar meydana gəlmişdir. Bunlardan biri də İrəvan xanlığı (1747-1828) idi. Xanlığa Ağrıdağ, Göyçə gölü və Araz çayından cənub-qərbə doğru gedən torpaqları daxil edilmişdi. Xanlığın paytaxtı İrəvan şəhəri idi və onun 15 mahalı mövcud idi. Bunlara daxildir: Zəngibasar, Göyçə, Şərur, Qırxbulaq, Vedibasar, Talın, Seyidli-Axsaxlı, Sürməli, Sərdarabad, Karpi, Gərnibasar, Abaran, Dərəkənd, Saatlı, Dərəçiçək. Xanlığı idarə edən dövlət xadimləri hakimiyyət dövrünə əsasən aşağıdakı kimi sıralanmışdır:*

- *Mehdi xan*
- *Məhəmməd Hüseyn xan*
- *Xəlil xan*
- *Hüseynəli xan*
- *Məhəmməd Hüseyn xan*
- *Əliqulu xan Qacar*

- *Həsən xan Məkulu*
- *Mehdiqulu xan Qacar*
- *Əhməd xan Marağalı*
- *Hüseynqulu xan Qacar*

*1827-ci ilin sonlarında Rusiya İrəvan şəhəri işğal etmişdir. 10 fevral 1828-ci il tarixində isə Türkmənçay müqaviləsi bağlanılaraq İrəvan Rusiyanın tərkbinə daxil edilmişdir. Məhz bundan sonra artıq İrəvan ərazisində ermənilәşdirilmə prosesinə başlanılmışdır. Əvvəlcə Çar Rusiyası "Erməni vilayəti" yaratdı, daha sonra ləğv edərək, İrəvanı qəzaya çevirdi və Gürcü-İmeret quberniyasınən tərkibinə verildi. Sonra isə ərazidə İrəvan quberniyası təşkil edildi. Mərkəzi isə İrəvan şəhəri olmuşdur. Çarizmin quberniyadakı əhalinin etnik tərkibində ermənlərin çoxluq təşkil etməsi niyyətində idi. 1917-ci ilin məlumatına görə, ərazidə baş tutmuş soyqırım və deportasiyalara rəğmən, azərbaycanlıların sayı 373582 (33,35%), ermənilərin isə 669871 (59,8%) nəfər idi.*

*1918-ci ildə AXC İrəvan ətrafındakı təxminən 9.5 min kv.km torpaq ermənilərə güzəşt edildi ki, burada Ermənistan (Ararat) Respublikası yaradıldı. 1920-ci ilin sonlarına bolşevik Rusiyası ərazidə Ermənistan Sovet Sosialist Respublikası təşkil etdi. SSRİ-nin dağıldıqdan sonra həmin respublika 1991-ci ilin sentyabrında müstəqilliyi elan etdi. Nəticədə, Azərbaycanın qərb torpaqlarında ermənilər öz dövlətlərini yaratmağa nail oldular.*

*İrəvanlı, yeraz, yerevanlı, qərbi azərbaycanlılar hesab edilən Ermənistan azərbaycanlıları Dağlıq Qarabağ münaqişəsi nəticəsində torpaqlarını tərk etməyə məcbur edildilər. BMT-nin Qaçqınlar üzrə Ali Komissarı İdarəsi tərəfindən təqdim edilən məlumatına əsasən, hazırda Ermənistanda azərbaycanlılar yaşayır. Onların əksəriyyəti burada məskunlaşmış ermənilərlə ailə qurmuş azərbaycanlı qadınlar, yaşlı və xəstə olması səbəbilə ərazini tərk edə bilməyən insanlardır. Habelə, onların çoxu adlarını dəyişdirmiş və ya əsl kimliklərini gizlədirlər ki, ayrı-seçkiliyə məruz qalmasınlar.*

*"Türksüz Ermənistan" (1828-1989) siyasəti nəticəsində ərazidə 605-dən çox kənddə artıq azərbaycanlılar yaşamır. 1.5 milyondan çox əhali yerini tərk etməyə məcbur edilmiş, 500 mindən çox azərbaycanlı qətlə yetirilmişdi.*

*Ümumilikdə, yerli əhalinin etnik tərkibi müxtəlif olmuşdur. Erməni-amerikalı tarixçi Corc Burnutyanun araşdırmasından məlum olmuşdur ki, XIX əsrdə İrəvan xanlığının əhalisi 100 min nəfərdən ibarət idi və onun təqribən 80%-i müsəlmanlar (azərbaycanlı, fars, kürd), 20%-i isə məsihilər (erməni) idi. Xanlıq Rusiyanın tərkibinə keçdikdən sonra çox sayda xeyli müsəlmanlar buranı tərk etməyə məcbur edildi və əraziyə ermənilər köçürüldü.*

*1926-ci ilin Ümumittifaq əhali qeydiyyatına görə, Ermənistanda cəmi 83.181 nəfər azərbaycanlı məskunlaşmışdı. 1948-1950-ci illərdə daha 100 min azərbaycanlı ərazini tərk etməyə vadar edildi. 1988-1991-ci illərdə Azərbaycana 200 min qaçqın qəbul edildi ki, onların çoxu bölgənin 22 rayonundan didərgin salınmış azərbaycanlılar idi.*

*Ümumiyyətlə, soydaşlarımızın Qərbi Azərbaycandan deportasiya edilməsi və köçürülməsi prosesi XVIII əsrdən başlanılmışdı. XX əsrdə baş verən əsas deportasiya prosesini isə üç mərhələyə ayırmaq olar:*

- *Birinci mərhələ – 1905-1920-ci illər;*
- *İkinci mərhələ – 1948-1953-ci illər;*
- *Üçüncü mərhələ – 1988-1992-ci illər.*

*Məlum məsələdir ki, Qərbi Azərbaycanda baş vermiş bu hadisələr bütövlükdə regionun iqtisadi, sosial və mədəni inkişafa əngəl olmuşdur.*

*Qərbi Azərbaycanın təbiəti və coğrafi şəraiti olduqca əhəmiyyətlidir. Həm iqlim cəhətdən, həm də bio və zoo aləminin müxtəlifliyi cəhətdən bölgə olduqca zəngindir. Hərçənd bölgədəki əksər şəhərlərin, coğrafi resursların adları dəyişdirilmişdir.*

*Qərbi Azərbaycanın inzibati-ərazi bölgüsü 1920-1928-ci illərdə arasında 10 qəzadan, 1929-cu ildə isə Zəngəzur, Sevan, Lori, İrəvan, Leninakan olmaqla 5 dairədən, 1930-cu ildə isə 36 rayondan ibarət olmuşdur. Hazırkı Qərbi*

*Azərbaycan regionun inzibati-rayon bölgüsü bu cürdür:*

- *Şörəyel*
- *Dağlıq Borçalı*
- *İrəvan*
- *Göyçə*
- *Zərgibasar*
- *Zəngəzur*
- *Qırxbulaq*
- *Kərbibasar*
- *Dilican*
- *Dərələyəz*
- *Sərdarabad.*

*SSRİ dövründə Qərbi Azərbaycanda Ermənistan SSR Ali Sovetinin fərmanları əsasında "addəyişmə əməliyyatları" həyata keçirilmişdir. Məlumatlara görə, 1988-ci ilin avqust ayınadək 521 yaşayış məntəqələrinin adları dəyişdirilmişdir. Yaşayış məskənlərində addəyişmə əməliyyatı qeyd edilən qaydalara əsasən gerçəkləşdirilmişdir:*

- *Tamamilə adları dəyişdirilmiş;*
- *Ermənicəyə hərfi tərcümə edilmiş;*
- *"Beynəlmiləlçilik" pərdəsi altında dəyişdirilmiş;*
- *Cüzi dəyişiklə, ancaq ermənicələşdirilmiş adla əvəz edilmiş;*
- *Adın önündə gələn sözlər ermənicə yazılmışdır.*

*Bununla yanaşı, ərazidəki kəndlərin birləşdirməsi adı altında çox sayda Azərbaycan kəndinin adı siyahısından çıxarılmışdır: Aşağı Kilsə (Qufaark), Qamışlı (Vardenis), Rəhimabad (Masis), Ağtala (Kamo).*

*1918-1987-ci illərdə isə 254 yaşayış məntəqəsi müxtəlif üsullarla siyahısından silinmişdir. 1948-1953-cü illər isə 60-dan çox yaşayış yerinin adları dəyişdirilmişdir. 1978-ci ildə 23 rayonda 60 toponim, 1991-ci il isə 90 məntəqənin adı dəyişdirilmişdir*

*Qərbi Azərbaycan subtropik zonada yerləşir. Buna baxmayaraq, ərazi dağlıq relyefinə əsasən müxtəlif iqlim tiplərinə malikdir. Onun iqlim şəraitinə Qara dəniz, Xəzər dənizi, İran və Kiçik Asiyanın yüksək dağlıq hissələri təsir edir. Günəş işığının illik müddəti 2000-2800 saat təşkil edir. Düz və dağətəyi bölgələrin iqlimi quru, orta dağlarda isə mülayim olur. Yüksək dağlıq hissələrdə soyuq iqlim, sərin yay mövcuddur.*

*Qərbi Azərbaycan bölgəsi 6 iqlim rayonuna bölünmüşdür:*

- *Qarabağ yaylasının qərb hissəsi;*
- *Ağrıdağ-Arpaçay hissəsinin quru kontinental qurşağı;*
- *Ağrıdağın ön dağlıq hövzəsi;*
- *Dağ Borşalı, Pəmbək və Dilican hissəni əhatə edən şimal zona;*
- *Mərkəzi bölgənin yüksək dağlıq qurşaqları;*
- *Həmin qurşaqlardan 3000 m-dən yüksək olan ərazilər.*

*Qərbi Azərbaycanın torpaq növləri müxtəlifldir: səhra torpaqları kompleksi, takirlər (təpəli qumlu sahələri), qəhvəyi gilli torpaqlar, qəhvəyi daşlı torpaqlar, şabalıdı torpaqlar, qəhvəyi torpaqlar və s.*

*Ərazidəki dağlara misal olaraq: Alagöz dağı (Araqats), Qarnıyarıq dağı (Araler), Ağçala dağı (Açkasar), Əjdaha dağı (Ajdahak), Dəvəboynu (Uxtasar), Ağmanqan (Geğam), Dərələyəz dağ silsiləsi (Vayotsdzor), Qutan (Qutanasar), Ağdağ (Spitakasar), Basarkeçər dağ silsiləsi (Vardenis), Qarqar (Tsxuk), Tej-Əhməd/Tej (Tej-ler) və s.*

*Hazırda Qərbi Azərbaycanın ancaq 11%-i meşə ərazisidir. Meşələrdə 250-dən çox bitki növü bitir. Meşələrin 81,3%-i palıd, vələs və fıstıq kimi enliyarpaqlı ağaclar tutur, təxminən 8%-ni isə şam ağacları tutur. Ümumiyyətlə, bölgədə çöl və otlaqlar isə 18%-30%-ə qədər ərazini tutur. Regioun florası olduqca rəngarəngdir:*

*cökə, palıd, şam, ardıc, kül, vələs, fıstıq, ağcaqayın, qovaq, əncir, üzüm, armud, yabanı alma, şaftalı, qoz, ərik, nar, müxtəlif giləmeyvələr, ətirli yovşan, astragalus, akantolimon, traqakant, friqqanoid və d.*

*Bölgənin faunasına isə 450 onurğalı, 10 mindən çox onurğasız, 304 quş, 24 balıq, 20 ilan və başqa növlər daxildir. Bunlara misal olaraq göstərmək olar: Suriya ayısı, cüyür, Ussuri xallı maral, tülkü, meşə pişiyi, bəbir, vaşaq, gürzə ilanı, araxnid-əqrəb, Qafqaz gürzəsi, cəngəllik pişiyi, çöl donuzu, ilan qartalı, qağayı, çaqqal, bataqlıq harrier, dağ köstəbəyi siçovulu, Kiçik Asiya yer dələsi, Kiçik Asiya siçovulu, yenot iti, sarğı, kəklik, torğay, ağacdələn, qrif quşu, odun xoruzu, xramuli, ilqaba, alp ispinozu, imperator qartalı, xəzər qar xoruzu, barbel, koğak, saqqallı qartal və b.*

*Bölgənin hidroloji şəbəkəsinə buzlaq, çay, göl, yeraltı su hövzəsi, sututar kimi ehtiyatlar daxildir. Qərbi Azərbaycan ərazisindən ümumilikdə 9,5 min çay keçir. Çayların ən böyüyü Araz çayıdır. Bölgənin 100-ə yaxın gölü var. Onun ərazisində Qafqazın ən böyük gölü hesab olunan Göyçə gölü (1276,6 kv.km) yerləşir. Ümumiyyətlə, Qərbi Azərbaycanın hidroloji şəbəkəsinə aşağıdakı kimi sistemləşdirmək olar:*

- *Çaylar: Araz çayı (Araks), Gərni çayı (Azad), Bazarçayı (Vorotan), Ağstafaçay (Aqstev), Zəngi çayı (Hrazdan), Arpaçay (Axuryan), Əyənzur çayı (Ağavnadzor), Qaranlıq çayı (Martuni), Gorus çayı (Qoris), Ələyəz çayı (Yeğeğis), Bəstiçay (Tsva), Cəlaloğlu çayı (Dzoraget), Balıqlı (Dzknaget), Basarkeçər çayı (Vardenis), Tərsaçay (Qetik), Tona çayı (Debed), Qarasu çayı (Sevcur), Oxçuçay (Voxçi);*
- *Göllər: Göyçə gölü (Sevan), Dibsiz-göl (Açkasar liç), Arpa gölü (Arpi), Ayğır gölü (Ayğir liç), Qaragöl (Kari liç), Aydın gölü (Parz liç), Göygöl (Qoş liç) və s.*

*Göyçə gölü mavi suları ilə insanı valeh edir. Tektonik mənşəli ola bu göl 2776 kv.km sahəni əhatə edir. Göl Böyük və Kiçik Göyçə olmaqla, iki əsas hissəni birləşdirir. Gölün yatağında 2000-ə yaxın bulaq qaynayıb gölün suyuna qarışır və suyun təmizliyinə kömək edir. 1923-cü ildən etibarən gölün suyundan suvarma əkinçiliyində çox istifadə edildiyi üçün su səviyyəsinin azalmışdır. 1960-cı illərdə isə Basarkeçar, Çəmbərək, Pəmbək və Kəvər adlı yerlərdə yaşayan müsəlman-türk əhalisinin köməyi ilə gölünün ətrafında bitkilər əkildi. Bununla da, bu problemin qarşısı alınmışdır. 2004-cü ildə isə Göyçə gölünün sahilində mürtəce hay kilsəsi tərəfindən Ruhani akademiyası açılmış, hətta kilsə tikdirilmişdir.*

*Bölgədəki təbiət resursların müxtəlifliyi Qərbi Azərbaycanın təbii mədəniyyətinin zənginliyindən xəbər verir. Aydındır ki, təbiət özlüyündə mədəni mühitin, estetik zövqün inkişafı üçün xüsusi rola malikdir.*

*İlk olaraq qeyd etmək lazımdır ki, mədəniyyət fenomeni bir çox elmlərlə əlaqəlidir. Həmçinin, tarix və coğrafi elmlərlə də vəhdət inkişaf edir.*

*Məhz layihənin bu hissəsində ilk olaraq Qərbi Azərbaycanın tarixi dövrləri və coğrafi mühiti araşdırılmışdır. Mənbələrdən də məlum olduğu kimi, bölgənin taleyi olduqca çətin olmuşdur. Çoxsaylı işğal və soyqırımlarla qarşı-qarşı qalmışdır. Rusiyanın regionda erməniləşdirmə siyasətinin aparması, bölgədə Ermənistan Respublikasının meydana gəlməsi, habelə yerli əhalinin deportasiya edilməsi prosesi bütövlükdə ərazinin mədəni tənəzzülünə səbəb olmuşdur. Bu süqut Qərbi Azərbaycanın maddi və mənavi cəhətdən çöküşü olmuşdur.*

*İkinci hissədə isə Qərbi Azərbaycanın təbii-coğrafi şəraiti təsvir edilmişdir. Burada onun inzbati bölgüsü, landşaftı, bitki örtüyü və heyvanlar aləmi barədə məlumatlar verilmiş, işğaldan sonra dəyişdirilmiş toponimlər təqdim edilmişdir. Təbii ki, təbii-mədəni resursların zənginliyi öz növbəsində mədəniyyətin inkişafına yardımcı olur. Beləliklə, layihənin birinci mərhələsində Qərbi Azərbaycanın tarixi və coğrafi icmalına nəzər yetirdik. Bu isə öz növbəsində mədəniyyətin inkişafı üçün mühüm rola malik faktorlardan biridir.*

**2** Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (cari rüb üçün, faizlə qiymətləndirməli)

*Layihənin I mərhələsinin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi təqribən 16 % bərabərdir.*

| | |
|---|---|
| **3** | Hesabat dövründə alınmış **elmi nəticələr**, onların yenilik dərəcəsi |
| | 1. *Qərbi Azərbaycan bölgəsinin tarixi icmalına baxış keçirilmişdir. Bu əsasda regionun keçdiyi çətin yollar araşdırılmış, tarixi dövrlər sistemləşdirilərək onların üzərində təhlillər aparılmışdır;*<br>2. *Regionun təbii-coğrafi şəraitinin müxtəlifliyinə nəzər salınmış və qısa icmalı təqdim edilmişdir. Ərazinin iqlim şəraitinin dəyişkənliyindən, bio və zoo aləminin rəngarəngliyindən, hidroloji resurslarından bəhs edilmişdir;*<br>3. *Layihənin birinci mərhələsində bölgənin tarixi və təbii-coğrafi şəraitini tədqiq etməklə, bu amillərin mədəni-tarixi resurslar üzərində təsirini , o cümlədən mədəniyyətin inkişafına göstərdiyini təsiri müəyyən edilmişdir.* |
| **4** | Layihənin yerinə yetirilməsi zamanı istifadə olunan üsul və yanaşmalar |
| | *Layihənin birinci mərhələsinin yerinə yetirilməsi zamanı elmi ədəbiyyatların əsasında bölgənin öncəki və sonrakı dövrlərinin tarixi-mədəni problemlərinin müqayisəli-həlli, mənbələrdən əldə edilən məlumatların ümumi təhlili, konkretləşdirmə, ümumiləşdirmə, sistemləşdirmə kimi üsullardan, həmçinin mənbə bazasına əsasən elmi-statistik və sosio-mədəni yanaşmalarından istifadə edilmişdir.* |
| **5** | Layihə üzrə elmi nəşrlər (məqalələr, monoqrafiyalar, icmallar, konfrans materialları, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə) *(surətlərini əlavə etməli!)* |
| | *Çapa göndərilmişdir.* |
| **6** | İxtira və patentlər, səmərələşdirici təkliflər |
| | *Qərbi Azərbaycan bölgəsi kulturoloji tariximizin əsas məskənlərindən biridir. Məhz bu səbəbdən, ərazinin tarixi-mədəni kontekstdə daha dərindən tədqiq edilməsi, o cümlədən müxtəlif elmlər tərəfindən ciddi şəkildə araşdırmaların davam etdirilməsinin önəmli məsələ olduğunu düşünürük.* |
| **7** | Layihə üzrə ezamiyyətlər |
| | *Olmayıb* |
| **8** | Layihə üzrə elmi ekspedisiyalarda iştirak |
| | *Olmayıb* |
| **9** | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *Olmayıb* |
| **10** | Layihə mövzusu üzrə elmi məruzələr (seminarlar, konfranslar, dəyirmi masalar və s. çıxışlar) |
| | *Olmayıb* |
| **11** | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar |
| | *Yoxdur* |
| **12** | Yerli həmkarlarla əlaqələr |
| | *Olmayıb* |
| **13** | Xarici həmkarlarla əlaqələr |
| | *Olmayıb* |
| **14** | Layihə mövzusu üzrə kadr hazırlığı |

| | |
|---|---|
| | *Yoxdur* |
| **15** | Sərgilərdə iştirak |
| | *Olmayıb* |
| **16** | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi |
| | *(Olmayıb* |
| **17** | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. |
| | *Olmayıb* |

**Layihə rəhbərinin imzası ____________________ Nəzərova Gülnar Fərrux qızı**

**Tarix ____________________**

QEYD: bütün hallarda uyğun olan bəndlər doldurulmalıdır.